UOT 94(479.24); UOT 94

GÜLNAR RZAYEVA
Sumqayıt Dövlət Universiteti
ORCİD- 0000-0002-3804-846X
Gulnar.rzayeva@sdu.edu.az

HEYDƏR ƏLİYEVİN AQRAR İSLAHATLARINDA BEYNƏLXALQ LAYİHƏLƏRİN ROLU: DÜNYA BANKI TƏCRÜBƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/110/268-272

Sovet İttifaqının süqutundan sonra kənd təsərrüfatı sahəsində dərin böhranla üzləşən Azərbaycanın aqrar sektoru Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra yeni inkişaf yolunu tapmış oldu. Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən aqrar islahatlar bu sahənin davamlı inkişafını təmin etmək, kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, xarici bazarlara çıxışı genişləndirmək məqsədi daşıyırdı. Məqalədə aqrar sahədə beynəlxalq əlaqələr, xüsusilə Dünya Bankı kimi nüfuzlu təşkilatla əməkdaşlıq çərçivəsində icra olunan layihələrin kənd təsərrüfatına təsirindən bəhs edilir. Aqrar sektorun modernləşdirilməsi, kredit və məsləhət xidmətlərinin yaradılması, torpaq özəlləşdirməsi, fermer biliklərinin artırılması və kənddə yoxsulluğun azaldılması kimi istiqamətlərdə əldə olunmuş nailiyyətlər təhlil olunur.

Açar sözlər: Azərbaycan, Dünya Bankı, aqrar, layihə.

Giriş. Sovet İttifaqının süqutundan sonra müstəqilliyini yeni bərpa etmiş Azərbaycan üçün aqrar sektorun böhrandan çıxarılması qarşıya qoyulan əsas məqsədlərdən idi. Lakin köhnəlmiş infrastruktur problemləri, məhdud texnologiya, kənd təsərrüfatına investisiyaların qoyulmaması, fermerlərin bazar iqtisadiyyatı prinsipləri ilə zəif tanışlığı, iqtisadi böhran aqrar islahatların həyata keçirilməsində böyük çətinliklər yaradırdı. Ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra 1994-cü ilin dekabrında və 1995-ci ilin martında aqrar islahatları formalaşdırmaq üçün xüsusi komissiyaların yaradılması haqqında göstəriş verdi. Nəticədə 1996-cı ildə qəbul edilmiş "Torpaq islahatı haqqında" və "Azərbaycanda sovxoz və kolxozların ləğvi haqqında" qanunlar əsas qanunvericilik sənədləri oldu. [1, s.30]

Ulu öndərin 1993-2003-cü illərdə həyata keçirdiyi torpaq islahatları Sovet dövründən qalmış vahid, planlı və böyük sahələri əhatə edən kənd təsərrüfatı torpaqlarının daha kiçik, fərdi təsərrüfatlara bölünməsi ilə nəticələndi. Ən əlverişli torpaq sahələri 3,5 milyona yaxın insana verildi ki, bu da şəxsi təsərrüfatın inkişafına, gəlirlərin artmasına, kənd əhalisinin güzəranının yüksəlməsinə, kəndlərdə məşğulluğun artmasına gətirib çıxardı. Lakin yuxarıda qeyd etdiyimiz səbəblərdən islahatların həyata keçirilməsində müəyyən çətinliklər yaranırdı. Heydər Əliyev aqrar islahatların davamlılığını təmin etmək və yüksək nəticələrə nail olmaq üçün beynəlxalq təşkilatlarla əməkdaşlığı prioritetə çevirdi. Həyata keçirilən beynəlxalq layihələr, xüsusilə Dünya Bankı, Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (IFAD), Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın kənd təsərrüfatı sektorunun dayanıqlı inkişafına və qlobal bazarlara inteqrasiyasına əhəmiyyətli töhfələr verdi.

Dünya Bankı ilə əlaqələr. Dünya Bankının Azərbaycanla əlaqələri 1992-ci ildən etibarən qurulsa da, davamlı əməkdaşlıq ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında başladı. Dünya Bankının Azərbaycana yardım strategiyasının əsas məqsədi ölkənin davamlı inkişafına köməklik göstərmək, yoxsulluq səviyyəsini aşağı salmaq üçün proqram və layihələrin hazırlanmasını və həyata keçirilməsini sürətləndirmək olmuşdur. Bu layihə və proqramlar isə 4 istiqamətdə həyata keçirilirdi:

- özəl sektorun davamlı inkişafına şəraitin yaradılması;
- kənd təsərrüfatında böhranı aradan qaldıraraq rəqabət qabiliyyətinin artırılması;
- sosial yardımların və sosial xidmətlərin səmərəliliyinin artırılması;
- əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi;
- daxili istehsalın artırılması. [2, s.12]

Sadalanan məqsəd və prinsiplər çərçivəsində İFAD və Dünya Bankının əməkdaşlığı ilə həyata keçirilən aqrar layihə bu strategiyanın təməl daşlarından biri oldu. "Kənd təsərrüfatı özəlləşdirmə" layihəsi hökumətin strateji məqsədləri ilə sıx uyğunlaşdırılmış və aqrar islahat sahəsində böyük təşəbbüsünü dəstəklədiyi üçün mühüm əhəmiyyət kəsb etmişdir.

İFAD-ın texniki dəstəyi ilə Dünya Bankı tərəfindən 1996-cı ildə hazırlanmış olan "Kənd təsərrüfatı özəlləşdirmə" layihəsi kənd təsərrüfatı və su idarəçiliyində texniki təcrübəni, kredit mexanizmlərini və institusional gücləndirməni birləşdirərək kənd təsərrüfatının bərpasına və inkişafına yönəlmişdi. Layihənin həyata keçirilməsində əsas məqsəd:

- işsizliyi azaltmaq və sosial xidmətləri yaxşılaşdırmaq;
- təsərrüfatdan kənar iş yerləri yaratmaq üçün biznes mərkəzləri qurmaq;
- həssas əhali qruplarını əhatə edən sosial inkişaf təşəbbüslərini göstərmək;
- özəlləşdirmə və kreditlərin ayrılmasına dəstək olmaq idi. [3, s. 1]

Eyni zamanda layihənin həyata keçirilməsində 6 istiqamət müəyyən edilmişdir:

- torpaq qeydiyyatının inkişafı;
- fermer məlumat və məsləhət xidmətləri;
- kredit xidmətləri;
- suvarma və drenaj infrastrukturunun bərpası;
- təsərrüfatlar arasında əlaqələrin qurulması üçün əlverişli mühitin yaradılması;
- torpaqların özəlləşdirilməsi və təsərrüfatın yenidən qurulması xidmətlərinin inkişafı. [4, s. 5]

Layihə 1997-ci ildə Azərbaycan Respublikası Kənd Təsərüfatı Nazirliyi tərəfindən icra olunmağa başladı və 2003-cü ilin dekabrında başa çatdı. Layihə modelləri keçmiş kollektiv və dövlət təsərrüfatlarının yerləşdiyi, subtropik zonalardan çöl ovalıqlarına qədər yerli şəraitə uyğunlaşdırılması üçün ölkənin altı rayonunda - Bərdə, Lənkəran, Salyan, Şərur, Ucar və Xaçmaz rayonlarında torpaq özəlləşdirmə proqramının sahədə pilot tətbiqini dəstəkləməklə başlamışdı. Zamanla Dünya Bankı kənd təsərrüfatının təşviqi, kredit, təlim, tədqiqat, suvarma, torpaq qeydiyyatı, icma tərəfindən idarə olunan kənd infrastrukturu və kənd bankçılığı kimi əsas dəstək xidmətlərini inkişaf etdirmək məqsədilə layihələrini genişləndirmişdir. Azərbaycan Nazirlər Kabinetində layihə idarəetmə bölməsi yaradılmış, hər bir pilot rayonda yerli kənd təsərrüfatı agentlikləri və fermerlərdən ibarət layihə icra bölmələri təşkil edilmişdir. [5, s.2]

Layihənin icrası çərçivəsində fermerlərin özəlləşdirmə, təsərrüfatın yenidən qurulması, biznes planlaşdırması, müstəqil təsərrüfat idarəçiliyi, torpaq bazarları, kredit imkanları sahəsində biliklərini artırmaq üçün Məsləhət və İnformasiya Xidmətləri yaradılmışdır. Beləliklə, layihə məhsuldarlığı artırmaq, mövsümi kapital qoymaq, yeni avadanlıqlar və infrastrukturun bərpası üçün kredit ehtiyaclarını nəzərə alaraq yeni yaradılmış özəl təsərrüfatlara dəstək verdi. Belə ki, həm fermerlərə, həm də kreditorlara təlimlər təklif olundu və mövsümi dövriyyə kapitalı, heyvandarlıq, kənd təsərrüfatı maşınları və avadanlıqları, habelə infrastrukturun bərpası və inkişafı üçün Aqroprombank vasitəsilə kreditlər ayrıldı. [3, s.2]

Artıq 1999-cu ilin iyununda bütün torpaq sahələrinə identifikasiya nömrələrinin verilməsi işi tamamlanmışdı. 2001-ci ilin sonuna qədər 869,785 ailədən 838,233-ü torpaq sənədləri almış, özəlləşdirilməsi nəzərdə tutulan 1,391,600 hektar torpağın 97%-i paylanmışdır. [3, s.1]

Layihə çərçivəsində pilot rayonlarda fermerlərinin 80%-i gübrə istifadə edirdisə, digər rayonlarda bu göstərici cəmi 38% təşkil edirdi. Digər kənd fermerlərindən fərqli olaraq layihə fermerlərinin hamısının kənd təsərrüfatı xidmətlərindən yararlanma imkanları var idi. Pilot rayonların fermerlərinin 81%-i suvarma ilə ehtiyaclarına uyğun olaraq təmin olunduqları halda, özəlləşmədə iştirak etməyən fermerlər üçün bu göstərici 23% olmuşdur. [6, s. 26]

Layihə torpaq sahələrinin sürətli və bərabər paylanması mexanizmini, dəqiq və səmərəli torpaq qeydiyyat sistemini yaratdı. Bu modellərin 1998-1999-cu illərdə ölkə üzrə təkrarlanması nəticəsində təxminən 825,000 yeni kiçik ferma yaradıldı. Azərbaycanda "Kənd təsərrüfatı özəlləşdirmə" layihəsi sürətli, geniş və ədalətli şəkildə torpaq islahatının həyata keçirilməsinə dəstək oldu. Layihə qısa zamanda öz müsbət nəticələrini göstərdi. Belə ki, layihənin həyata keçirildiyi pilot rayonlarda 1997-2003-cü illər arasında məhsuldarlıq 50-100%, əkin intensivliyi isə 40% artdı, kənd yerlərində yoxsul-

luq əhalinin 66%-dən 43%-ə endi, 825,000 yeni ferma yaradıldı, kənd təsərrüfatı təxminən 400,000 yeni iştirakçını cəlb etdi və əmək məhsuldarlığı əhəmiyyətli dərəcədə artdı. [5, s. 3]

"Kənd təsərrüfatının inkişafı və kredit" layihəsi (1999-2006) aqrar sahədə dönüş nöqtəsi oldu. Layihə hökumətin kənd təsərrüfatı sektorunda inkişaf strategiyasına uyğun olaraq Dünya Bankı ilə birgə işlənib hazırlanmışdı. Layihənin əsas məqsədi fərdi və qrup təsərrüfatlarını yeni sistem çərçivəsində inkişaf etdirmək, əkin sahələrini yüksək məhsuldarlıq səviyyəsinə çatdırmaq, fermer təsərrüfatlarına kreditlər ayırmaq idi. [7, s. 3]

Proqramda dövlətin aqrar islahatlarını dəstəkləmək istiqamətində yeni yaradılmış şəxsi təsərrüfatların və təsərrüfat müəssisələrinin kredit tələblərini ödəmək üçün kənd maliyyə sisteminin və kənd təsərrüfatında dövlət və özəl sektor üçün kənd məsləhət xidmətlərinin yaradılması nəzərdə tutulurdu.

Bu fəaliyyətlərlə əsasən neftə əsaslanan iqtisadiyyatda kənd təsərrüfatı sektorunun rəqabət qabiliyyətinin artırılması, kənd təsərrüfatında yaranan özəl sektorun özəlləşdirmədən sonrakı inkişafının sürətləndirilməsi, ədalətli və rəqabətə davamlı torpaq bazarlarının yaradılmasına nail olunması planlanmışdı. Proqramın üç mərhələdən ibarət olmaqla 10 il müddətinə həyata keçiriləcəyi nəzərdə tutulurdu.

Birinci mərhələdə qanunvericilik bazasının təsərrüfata tətbiqi, təsisatların və prosedurların işlənib hazırlanması, kredit müəssisələrinin fəaliyyəti, məsləhət xidmətlərinin yaradılması kimi işlər həyata keçirilərək 4 ili əhatə etdi. Sonrakı mərhələlərdə isə daha çox bölgələrdə kənd məsləhət və maliyyə xidmətləri yaradılmış və birinci mərhələdə əldə olunmuş təcrübələrə əsasən həmin istiqamətlərdə daha geniş işlər görülmüşdür. [7, s.126]

30 milyon kredit ayrılmış layihə 1999-cu il 8 iyun tarixində təsdiq edilmiş və 2006-cı ilin iyun ayına qədər davam etmişdir. Layihə çərçivəsində 5 region üçün təlimlər, genişləndirici məlumatlar hazırlayan Regional Məsləhət Mərkəzləri yaradılmışdır. Kəndlilərə toxum, gübrə və müasir texnika almaq üçün aşağı faizli kreditlər təklif edilmiş, onlara məhsullarını yerli və xarici bazarlara çıxarmaq üçün marketinq bacarıqları öyrədilmişdir. Lakin beynəlxalq bazarlara çıxışın zəifliyi bu istiqamətdə bir sıra maneələr törədirdi.

Eyni zamanda təsərrüfatın idarə olunması üsulları ilə bağlı məlumat xarakterli kitabçalar hazırlanaraq fermerlərə paylanmışdı. Təlimatların daha çox təsərrüfatçıya əlçatanlığını təmin etmək məqsədilə qəzetlərdən və kütləvi informasiya vasitələrindən istifadə olunurdu. Təşəbbüsləri dəstəkləmək üçün Kənd Təsərrüfatı Nazirliyində İnformasiya və Məsləhət Mərkəzi yaradılmışdı. "Kənd təsərrüfatının inkişafı və kredit" layihəsinin həyata keçirilməsi nəticəsində təxminən 38000 fermer kredit aldı və ümumi məbləğ 26 milyon dollar təşkil etdi. Lakin kreditlərin verilməsində bəzi boşluqlar da müşahidə olunmuşdur. Belə ki, mövsümi kreditlərin müddətinin qısa olması, mövsümi istehsal ehtiyaclarına uyğunlaşdırılmaması, kreditlərin fermerlərə gec təqdim olunması, orta və uzunmüddətli kredit çatışmazlığı, fərdi kredit limitlərinin aşağı məbləğdə olması fermerlər üçün bir sıra çətinliklər yaradırdı. [4, s.13]

Kredit layihəsi nəticəsində fermerlər üçün məhsuldarlıq artımı 30% və daha çox olduğu halda, layihənin tətbiq olunmadığı təsərrüfatçılar üçün bu göstərici 10-15% olmuşdur. [4, s. 16]

Heydər Əliyevin rəhbərliyi altında Dünya Bankı ilə həyata keçirilən aqrar layihələr Azərbaycanın kənd təsərrüfatında mühüm dəyişikliklərə səbəb oldu. Belə ki, hər iki layihə kənd təsərrüfatının canlanmasında mühüm rol oynamış, yoxsulluğun azaldılmasına və iqtisadi dayanıqlılığın gücləndirilməsinə gətirib çıxarmışdır. Eyni zamanda Azərbaycanın aqrar islahatlarının ilkin illərində bu sahəyə həlledici töhfə vermiş, kənd təsərrüfatı sektoruna təqdim olunan xidmətlərin çeşidini genişləndirən əlavə layihələrin, kənd təsərrüfatına dəstək xidmətlərinin yaradılmasını pilot şəkildə həyata keçirmiş və başlanğıcını qoymuşdur. Kənd inkişafı proqramları kəndlilərin iqtisadi müstəqilliyini gücləndirmiş, məhsuldarlığın artmasına və yoxsulluğu azalmasına gətirib çıxarmışdır.

Nəticə. Azərbaycan keçmiş Sovet İttifaqına daxil olan ölkələr arasında məqsədli və davamlı torpaq islahatları aparan ilk ölkələrdən olmuş, müxtəlif proqram və layihələrlə bu islahatları dəstəkləmiş və kənd təsərrüfatının inkişafına töhfə vermişdir. Beynəlxalq layihələrin aqrar sahəyə təsirlərinə nəzər yetirsək ilk növbədə görərik ki, layihələr kənd yerlərində məşğulluğun artması, yoxsulluğun azalması ilə nəticələnmiş, tədris mərkəzlərində minlərlə fermerə müasir bacarıqlar vermişdir. Silsilə layihələr çərçivəsində fermerlər 50 mindən artıq mikrokreditlər almış, istehsal potensialı güc-

lənmiş, aqrar sahədə yeni maliyyələşdirmə üsulları tətbiq olunmuş, aqrar elm və təhsil dövrün tələblərinə uyğunlaşırılmış, infrastruktur xidmətləri təkmilləşdirilmiş, suvarma şəbəkələrinin bərpa edilməsi məhsuldarlığın artmasına töhfə vermişdir. Bu layihələr Azərbaycanın aqrar sektorda dünya iqtisadiyyatına inteqrasiya etmək yolunda mühüm addımları idi və Heydər Əliyevin strateji baxışının nəticəsi olaraq kənd təsərrüfatına yeni nəfəs gətirdi.

ƏDƏBİYYAT

1. Nora Dudwick, Karin Fock, David Sedik. A Stocktaking of Land Reform and Farm Restructuring in Bulgaria, Moldova, Azerbaijan and Kazakhstan. Environmentally and Socially Sustainable Development, Europe and Central Asia Region. June 2005.
2. Osman Nuri Aras. Elçin Süelymanov. Dünya Bankının Azərbaycanda həyata keçirdiyi infrastruktur layihələri. Journal of Qafqaz University. Number 15. Spring 2005.
3. Michael Thurman. Seeds of Innovation NENA and CEN Regions, Azerbaijan Farm Privatization Project. IBRD, 2004.
4. Project Performance Assessment Report Republic of Azerbaijan Farm Privatization Project (Credit No. 2933), Project Agricultural Development and Credit Project (Credit No. 3236) Document of The World Bank Report No. 44831. July 28, 2008.
5. Michael Thurman. Azerbaijan Farm Privatization Project. A case study from Reducing Poverty, Sustaining Growth□What Works, What Doest, and Why A Global Exchange for Scaling Up Success Scaling Up Poverty Reduction: A Global Learning Process. Conference Shanghai, May 25-27, 2004.
6. Keith R. Oblitas. IEG Working Paper 2011/3. Promoting Azerbaijan's Agricultural Productivity (1997–2010). The World Bank Washington, DC. 2011.
7. The World Bank Report No. 19290. Az project apparaisal document on a proposed credit in the amount os SDR 22.2 million (US$30 million equivlent) to the Azerbaihan Republic for anagricultural development and credit project. Environmentally and Socially Sustainable Development Europe and Central Asia Region.

ГЮЛЬНАР РЗАЕВА
Сумгаитский государственный университет

РОЛЬ МЕЖДУНАРОДНЫХ ПРОЕКТОВ В АГРАРНЫХ РЕФОРМАХ ГЕЙДАРА АЛИЕВА: ОПЫТ ВСЕМИРНОГО БАНКА

После распада Советского Союза аграрный сектор Азербайджана, столкнувшийся с глубоким кризисом в сельском хозяйстве, нашёл новый путь развития после прихода к власти Великого лидера Гейдара Алиева. Аграрные реформы, реализованные по инициативе Гейдара Алиева, были направлены на обеспечение устойчивого развития этой сферы, увеличение производства сельскохозяйственной продукции и расширение доступа к зарубежным рынкам.

В статье рассматриваются международные связи в аграрной сфере, в частности влияние проектов, реализованных в сотрудничестве с такими авторитетными организациями, как Всемирный банк. Анализируются достижения в таких направлениях, как модернизация сельского хозяйства, создание кредитных и консультационных служб, приватизация земель, повышение уровня знаний фермеров и снижение уровня бедности в сельской местности.

Ключевые слова: Азербайджан, Всемирный банк, аграрный, проект.

GULNAR RZAYEVA
Sumgayit State University

THE ROLE OF INTERNATIONAL PROJECTS IN HEYDAR ALIYEV'S AGRARIAN REFORMS: THE WORLD BANK EXPERIENCE

Following the collapse of the Soviet Union, Azerbaijan's agricultural sector faced a deep crisis. However, with the return to power of National Leader Heydar Aliyev, the country's agrarian sector found a new path to development. The agrarian reforms initiated under Heydar Aliyev aimed to ensure the sustainable development of agriculture, increase the production of agricultural goods, and expand access to foreign markets.

The article discusses international relations in the agrarian sector, particularly the impact of projects implemented in cooperation with prominent organizations such as the World Bank. It analyzes the achievements made in areas such as the modernization of agriculture, the establishment of credit and advisory services, land privatization, the enhancement of farmers' knowledge, and the reduction of rural poverty.

Keywords: Azerbaijan, World Bank, agrarian, project.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Adil Baxşəliyev, t.e.d. İbrahim Zeynalov.